# AZƏR

# ODƏR Xalqının qısa tarixi salnaməsi

## I KİTAB

## "TÖVRAD VƏ AZƏRBAYCAN"

Bakı - 2000

# AZIXANTROPUN BƏŞƏR

# FACİƏSİ

# ЧЕЛОВЕЧЕСКАЯ ТРАГЕДИЯ

# АЗЫХАНТРОПА

# HUMAN TRAGEDY of

# AZIKHANTROP

**Bakı - 2000**

**Az2**

AF94

**Tərtibatçı redaktor:**

***Afət Meylud-Oyli***

***Elmi redaktor:***

***Məsləhətçi:***

Rə'yçilər: t.e.d., professor **Y**.MAHMUDOV
t.e.n., dosent M.MİRZƏYEV

Naşir: QOŞQAR QARAYEV

**AF94 Afət, "Azıxantropun bəşər faciəsi". "QAPP-POLIQRAF" Nəşriyyat-Poliqrafiya Korporasiyası, Bakı, 2000, .... səh.**

Kitabda ilahiyyat elmlərindən sayılan, Allah-təla tərəfindən nazil olunmuş, Musa peyğəmbərə mə'nsub olan «Tövratın» Azərbaycan xalqının tarixi ilə üzvü şəkildə bağlılığı, Tövratın məhz bu xalqın itirilmiş tarixi olması məsələsi mö'təbər mənbələrə əsaslanaraq təsdiq edilir.

Eyni zamanda ilk dəfə olaraq Kür və Araz çaylarının, Azərbaycan coğrafi adlarından Salyanın və Salyan rayonun bir neçə kənd və qəsəbə adlarının, Qəbələnin, Qutqaşenin və s. coğrafi adların çox maraqlı etnoqrafik izahı, etmoloji təhlili verilmiş, bə'zi mifik-tarixi məsələlər öz həllini tapmışdır.

$A\,\frac{4702060200-130}{107-2000}\,2000$

© *"QAPP-POLIQRAF"*

# AZIXANTROPUN BƏŞƏR FACİƏSİ

## I fəsil

*Salyan haqqında həqiqət və əfsanələr*

## II fəsil

*İlahiyyət və həqiqət*

## III fəsil

*Allahlar yerə qayıdır*

## IV fəsil

*Bəşəriyyət dünən, bu gün və sabah*

## ÖN SÖZ

Geniş oxucu auditoriyasına təqdim edilən bu monoqrafiya məqalələr şəklində ayrı-ayrı fəsillərlə geniş elmi məsələlərin tədqiqinə həsr edilmişdir.

Bu monoqrafik elmi-tədqiqat əsərinin I məqaləsi Azərbaycan xalqının min-min illərdən bəri itirilmiş tarixinə həsr olunur. Söz yox ki, 21 ildən artıq vaxt sərf olunan bu elmi iş vaxt-bivaxt tənqid və istehzalara mə'ruz qalsa da çox nəhayət ki, elm zirvələrində, elmi ocaqlarda özünün öz azad səsini, haqq səsini təsdiq etməyə nail olmuşdur.

Bu tədqiqat işini fövqəlada yenilik adlandıran alimlərimizdən

***PÜSTƏXANIM ƏZİZBƏYOVANIN*** adını hörmətlə yad etmək istərdim.

***AYDIN MƏMMƏDOVUN***,

***XƏLİLRZA ULUTÜRKÜN***, «duzlu kəlamların» ifadəsini xatırlamaq istərdim.

Bu məqaləni axıra kimi dinləmək iqtidarından kənarda qalan

**Fəridə xanım Məmmədovaya,**

çox hörmətli elm ocağımızın ağsaqqalı

**İqrar Əliyevə,**

Bu yazı işi, İqrar müəllim, EA-nın Şərqşünaslıq İnstituna aiddir deyən

**Mahmud İsmayıla,**

«Tövrat başqa şeydir, Bibliya başqa şeydir»-deyən EA-nın Şərqşünaslıq İnstitunun direktoru hörmətli xanım **. . .**

**. . .**

və bu işdə öz köməyini bizə əsirgəməyən hörmətli alimlərə də öz təşəkkürümü bildirirəm.

Elm ocaqlarımızın «labirint quyusunun» qoçlar məkanından, Simruğlar kəhkəşanına gedən bu məşəqqətli yollarda gələcək alimlərimizə səbr diləyirəm.

Əsər *Internet* ilə

Rusiya - Moskva, Sankt-Peterburq akademiya və institutlarına

Fransa, İngiltərə, Amerika, İsrail və onlarla dünya dövlətləriin elm ocaqlarına göndərilmişdir.

***Müəllif***

AZIXANTROPUN BƏŞƏR FACİƏSİ

ÜMUMDÜNYA tarixinin tərkib hissəsi, Bəşər mədəniyyətinin möhtəşəm abidəsi, ULU AZƏRBAYCANIN əzəmətli tarixinə nəzər!

SALYAN haqqında həqiqət və əfsanələr...

Allahlardan olan - AZA və MİNDÜLİFƏRin qızı, MANİnin bacısı, ilahə SOL Allah deyil, insan imiş!!!

İsgəndərnamə adı ilə məşhur olan, tarixi bir əfsanədən ibarət farsca qədim bir kitabda yazılmışdır... İsgəndər qədim bir yunan şəhərinə çatdı. Şəhərin əhalisi təslim olmaq istəmədiyindən, İsgəndər bu şəhəri xaraba etmək istədi. Ərəstun hikməti ilə 700 batman miqdarında bir cür yağ düzəltdi. Şəhər dəniz səthindən aşağı idi, lakin orada dağdan bir hail var idi. Bu yağ daşı əhəng kimi əritdi. Bu qayda ilə suyun yolunu açdılar. Şəhəri batırdılar. Xilas olanların bə'zisi Gilan şəhərinin əsasını qoydu. Bakı ilə Salyan arasında, dəniz sahilindən təxminən səkkiz coğrafi mil aralı, suyun altında böyük bir şəhər vardır. Lakin yuxarıda söylənilən əlamətləri buna isbat vermək və hər halda qəti hökm vermək müşküldür. Bu böyük məsələ ayrı tədqiqat və mülahizələrdən asılıdır (1).

Bu fikrin hansı tarixi faktlara söykəndiyini araşdırmazdan, nəzərə alaq ki, tarixə səyahət edən hər bir alim və tədqiqatçı müraciət edəcəyi sualların cavabının istər antik, istər müasir alim və araşdırıcıların əsərləri ilə yanaşı, həm arxeologiyanın misilsiz maddi və mədəni yaddaşında, həm mifologiya və əsatirlərdə və nəhayət dini yaddaşlarda aramalıdır. Şərqin istər Qərbin böyük düha sahiblərinin dünya mədəniyyəti xəzinəsinə bəxş etdikləri, bir-birindən əvəzsiz sayılan sənət abidələrini şərh edərkən, böyük Nizamiyə, Firdovsiyə və Abasqulu ağa Bakıxanova müraciət etməyi özümə borc bilərdim! Bu şəxsiyyətlərin bizə miras qoyub getdikləri əvəzsiz xəzinələr özünün layiqli və tarixi analizlərini vaxtında tapsaydı, zənnimcə AZƏRBAYCAN xalqının əbədi örtülmüş tarix səhifələri əksəriyyət dünya alimlərini heyrətdə qoymuş olardı!

Bu fikrə tam aydınlıq gətirmək üçün Azərbaycan tarixinə, məhz ümumdünya tarixi prizmasından baxmalı, eyni zamanda planetin (YERİN) geoloji inkişaf mərhələlərinə nəzər yetirməklə **başəriyyətin tarixinin ilkin və nisbətən dəqiq miqrasiya modelini 1**
1 **yaratmağa nail olmalıyıq!** Əvvəla yerin geoloji tarixindən məlumdur ki, Antropogendə buzlaq epoxalar olmuşdur. Antropogendə dörd buzla epoxası, GÜNS, MİNDEL, RİSS, VÜRM və üç buzluqlar arası epoxa Güns- Mindel-Mindel-Ris və Ris-Vürm epoxaları mövcud olmuşdur. Bəşəriyyətin məhz miqrasiya təkamülü, ən mühümləri xüsusən bu üç dövrə təsadüf edir. XƏZƏR dənizinin sahilə KÜR-ARAZ ovalığına hücumu TRANSSQRESİYAsı və kəskin surətdə enməsi - REQRESİYAsı məhz bu dövrlərə aiddir. RİS buzbasmasından sonra gələn, güman ki, ən dəhşətli daşqın olan axırıncıdan qabaqkı daşqın nəzərdə tutulur. Bundan əvvəl Avropanın xeyli hissəsini qalınlığı az qala iki kilometr olan buz layı örtmüşdü; dənizlərdə su səviyyəsinin dəhşətli dərəcədə aşağı düşməsi də bununla izah edilir.

Qalın buz örtüyü canına o qədər su çəkmişdi ki, XƏZƏR dənizi yox olmuşdu. Qara dənizə hətta Aralıq dənizi dayaz daxili hövzələrə çevrilmişdir. Asiyadan Amerikaya quru ilə getmək olardı. Böyük daşqında bundan sonra oldu! (2)

2 **"NUH"un əfsanəsi də elə məhz bu dövrdə yarandı! SALYANIN NUH odası, NUHODLUSU-NOXUDLUSU bu tarixi epoxanın yadigar şahididir!!!**

Artıq məlumdur ki, Bəşəriyyətin mədəniyyət tarixi üç başlıca dövrdən ibarət olan antik inkişaf mərhələsini tropik və ya subtropik meşələrdə keçirmiş və bu pilləni bir neçə min illər davam etdirmişdir. Bəşər bu inkişaf mərhələsini öz mifologiyasında - Dünya ağacına, onun rəmzi olan ağaclara, bitkilərə tapınması ilə yaşatmışdır. Ağacı müqəddəs saymaq, ona



3

sitayiş etmək kimi dini etiqadını indiyə kimi qoruyub saxlamışdır. **(SALYANDA Piratamgəncəlidə "TUT AĞACI" piri zamanın şahidlik şəhadətidir!)**
4 **Tam cəsarətlə deyərdim, "Türkdilli" adı ilə adlanan xalqlar, çox təəssüf ki,**
**ODƏR-AZƏR dilli xalqlar deyə adlanmalı, özünün öz ulu adına mənsub olmalıdır. Zaman gələcək, TARİX hər şeyi öz adı ilə çağıracaqdır!!!** Bu xalqların minilliklər tarixini yaradan, bu xalqların dil tarixinin özəyini təşkil edən, onun mədəniyyət yüksəkliyini yaradıb və onun yüksəkliyində, zirvəsində dayanan AZƏRBAYCAN xalqının Ağaca-Bitkiyə tapınması ilə başqa xalqların inamları arasında maraqlı oxşarlıqlar vardır. Bu oxşarlıqla Misir mifologiyasında, Roma dövrünə qədərki əsatirlərdə təsadüf olunduğu kimi, eləcə də əski Şumerlərdə, Ural-Altay xalqlarında və nəhayət Qədim Hindistanın mifik eposlarında qorunub saxlanmışdır.

İnsanların balıq yemək və od işlətmək bacarığı onlara daha iqlimdən və yerdən asılı olmamağına yeni imkanlar yaratmış, zaman-zaman çayların axarı ilə, Quruçaydan Xəzərə kimi, çay vadilərini, dəniz sahillərini qarış-qarış, oymaq-oymaq gəzərək, bu əraziləri yaşamaq üçün uzun müddət yaşamağa müvafiq hesab etmişlər. **Qobustanda iki yerdə**
5 **qayada həkk olunmuş iri balıq şəkillərinin təsviri ilə balıqbelli evlərin ilkin Salyanda tikilməsi ehtimalı zamanın tarixlər xatiratıdır.** Qədim dünyanın təbii ki, coğrafi cəhətdən əlverişli təbiəti - NİL çayı kimi iti su vadisi, XUAN XEY YANÇIZI, AMUR dərya - SIR dərya,
6 EFRAT və TİQR, **FİSON və QİXON ERAKS və KİR və nəhayət KÜR və ARAZ çayları**
arasındakı münbit ovalıq torpaqlar ulu əcdadların zaman-zaman dolub boşalan yaşayış məskənlərinə çevrilmişdir. Lakin bu yaşayış məskənləri Yerin geoloji və tarixin ictimai prosesləri nəticəsində bir yerdə sönüb, başqa bir yerdə yenidən çiçəklənmiş, dərin köklər salaraq yeni-yeni miqrasiyalara məruz qalmışdır. Bu miqrasiyaların səbəbləri müxtəlifdir. Biz yalnız bunların üçü, ən başlıcaları haqqında söhbət aparacağıq. **Yuxarıda bu**
7 **miqrasiyaların buzluqlar arası epoxalara təsadüf etdiyini qeyd etdik. Eradan əvvəl xətt şkalasına uyğun olaraq bu miqrasiyaların üçüncüdən-birinciyə təhlili nəzərdə tutulacaqdır.** Riss-Vürm adlanan üçüncü miqrasiya epoxası Kür-Araz ovalığı əcdadlarının taleyinə bu dəfə də biganə qalmamışdır. **Dörd istiqamətə, ŞİMALA - doğru ƏRUZ-RUS çöllərini adlayaraq SKANDİNAVİYA və İRLANDİYA istiqamətində, DAĞÜSTDƏN adlayaraq DAĞISTANDAN ORTA ASİYA çöllərini BÖYÜK SƏHRANI adlayıb, HİNDİSTANA, ondan da içərilərə, KURİL istiqamətində ŞƏRQƏ doğru, CƏNUBA-**
8 **İRAN körfəzi, ƏRƏBİSTAN çöllərini adlayıb MİSİRƏ doğru NİL çayı vadisi boyunca, QƏRBƏ doğru Müasir Türkiyəni - EN ASİYAnı keçərək AVROPAYA, Yunanıstan və İtaliya istiqamətində miqrasiya fəlakəti, KÜR-ARAZ mədəniyyətinin yeni tarixi səlnaməsini yaradırdı.**

Artıq poliolitin ortalarında QƏRBƏ doğru miqrasiya edən köçəri tayfalar İTİALİKLƏR və ETRUSLAR - OD RUZlar köç edərkən özləri ilə müxtəlif taxıl növlərindən başqa üzüm, şaftalı, şabalıd, badam, tut, nar və əncir kimi meyvələr, xurma, zeytun və s. bitkiləri özləri ilə aparmış, əkinçilik üçün əlverişli, əkinçilik təsərrüfatı üçün yararlı sayılan ərazilərdə yaymış əv həmin əraziləri zaman-zaman yaşamaq üçün müvafiq hesab etmişlər. **Son əldə olan tədqiqatlara əsaslanaraq, Avropa antropoloqları belə nəticəyə gəlirlər ki, homonoidlər alt poliosen epoxasından başlayaraq (Poliosen epoxası təqribən 1,5**
9 **milyondan 700 min ilə qədər davam etmişdir) bəzi heyvan növlərin ilə birlikdə Cənubi Avropaya daxil olmuşlar (3).**

Bu barədə Bəşərin düha sahiblərindən sayılan F.Engelsin tədqiqatı hədsiz dərəcədə qənaətbəxşdir. O qeyd edir ki, insanların yarı oturaq həyat tərzi heyvanları əhliləşdirmək və artırmaq, bitki becərmək kimi yeni bir pilləyə çatmış oldu ki, **Şərq matirikində, Köhnə**
10 **dünya adlanan yerdə əhliləşdirilə bilən heyvanların demək olar ki, hamısı, yetişdirməyə yarayan dənli bitkilərin yalnız bircə növündən başqa hamısı var idi (4).**
**Koppenə görə bütün dünyada mövcud olan on bir iqlim tipindən 9-u və Qafqaz**
11 **kimi böyük ərazidə bitən 6 mindən çox bitki növünün 4 mini təkcə AZƏRABYCANDA, CƏNNƏT adlanan bu qədim diyarda, ODƏRBAĞINDA bitirdi!**

**Qərbə doğru miqrasiya edən İTALİKLƏR, OTRUZİLƏR - ETRUSLAR köç
edərkənnəinki bitki və heyvan nümunələrini, o cümlədən tarixlərlə yaşadığı dədə-
baba yurdlarının ərazi adlarını-toponimlərini, hidronimlərini, oykonimlərini özləri ilə
12 aparmış və məskunlaşdıqları yeni ərazilərə, yaşayış məskənlərinə vermiş, qaynayıb-
qarışdığı yerli əhalinin danışıq dilinə bəxş etmiş, mifik təfəkkürün yaranmasında və
onun formalaşmasında böyük bir tarixi rol oynamışdı.** İtaliyanın SAN-MARİNO
yaxınlığında yerləşən SALYANO şəhəri bu tarixin əyani sübutudur. **Məhz elə bu
baxımdan, SALYANO şəhəri ilə Azərbaycan şəhəri SALYAN arasındakı tarixi
13 bağlılığın olması maraq doğurmaya bilməz.** Bu tarixi bağlılığı araşdırarkən bir neçə
paralelləri, elmi araşdırmları və tədqiqat işləri nəzərdən qaçmamalıdır. İrəlidə bu məsələyə
mühüm və geniş aydınlıq gətirəcəyik.

Qədim əcdadların ümumi bir dilə, bir kökə bağlılığı barədə araşdırmalar aparmış
tədqiqatçı alimlər ümumi bir kökün olduğu fikrinə və bunun hansısa konkret bir coğrafi
əraziyə aid olduğu haqqında bəzi mülahizələr söyləmiş və bəzən də ərazinin mümkünlük
fikrini sual qarşısında qoymuş, onu Hindistan, gah Amerika, bəzən də **Böyük Səhradan
14 başlanğıc hesab etmək qənaətinə gəlmişlər. Çox təəssüf ki, bunun KÜR-ARAZ
ovalığı - AZƏRBAYCAN ölkəsi olduğundan, sanki qorxmuş, çəkinmişlər!**

Ulu tayfaların, homonoidlərin, alt poliosendən başlayaraq (hələ Tağlar düşərgəsindən
miqrasiya edən mustey adamın 90 min il bundan əvvəldən 35 min ilə qədər yaşadığı
müəyyən olunmuşdur) eyni zamanda bütün Yaxın Şərq ərazisində Tağlar düşərgəsinin
əsas mədəniyyət mərkəzi omlası və **Tağlarda hazırlanmış əmək alətlərinin hələ mustey
15 mədəniyyəti dövründə yaxın Şərq ölkələri ərazisinə yayılması aydın olmuşdur.**

Azərbaycan alimi İqrar Əliyev "Azərbaycan ərazisində ilk qəbilə ittifaqları" yazısında
qeyd edir ki, **KUTİ-UTİ və LULUBİ tayfaları əvvəllər Arazın cənubunda yaşamış,
16 naməlum səbəblərdən bir neçə dəfə miqrasiyalara məruz qalmış, gah DAĞISTANDA,
gah MESOPATAMİYAda, ya da KÜRDÜSTANda görünməyə başlamışdır (5).**

Bu həmən tayfa-qəbilə birləşmələri sonralar Azərbaycanda özlərinin dövlətlərini
yaratmış, Cənubda LULUBİLƏR MANNA dövlətinin, KUTilər isə şimalda ALBAN dövlətinin
əsasını qoymuşlar. Bu çox mühüm, eyni zamanda maraqlı və vacib məsələyə ətraflı
söhbət, elmi araşdırmalar aparmaq, aydınlıq gətirmək çox vacibdir. Onun üçün də bu
məsələyə bir qədər geniş aspektdə yanaşaq. Bu tayfa qəbilə ittifaqları Yerin daha hansı
ərazilərində görünməyə başlamış, səbəb nə imiş? Bir də bu tayfa-qəbilə birləşmələrinin
hansı soylarla qohumluq, yaxınlıq əlaqələri varmış?!

Məlumdur ki, ulu çağlarda ərazilər, şəhərlər, qəbilə tayfa və nəhayət şəhər-ölkə adları
tayfa-qəbilə ağsaqqalarının, sərəkərdərlərinin, əksər halda, adı ilə adlanmış, tarixdə izlər
qoymuşdur.

Bu şəxsiyyətlərdən biri də, Bəşəriyyətin mifik yaddaşında silinməz iz qoymuş patriarx
NUH-NUH peyğəmbərdir! Salyan ərazisində NUHun odası, NOHODLUSU-NOXUDLUSU
tarixi uzaq-uzaq keçmişlərindən xəbər verən bir oda, bir yaddaşdır! **Gəlin bu şəxsiyyətin
17 nəsil şəcərəsinə nəzər yetirək. Yuxarıda adını qyed etdiyimiz KUTilər tarixi - əfsanəvi
şəxs adıdır.**

KUT - NUHun nəvəsi, HAMIN üçüncü oğlunun adıdır.

XANAN - NUHun nəvəsi HAMIN dörduncu oğludur.

18 **XUŞ-QUŞ - NUHun nəvəsi HAMIN birinci oğlunun adıdır.**

"AVESTA"ya görə protoazərbaycanlıların soylarından sayılan qəbilələrdən birinin
adıdır. **Azərbaycan ərazisində bir neçə ərazi adları - QUŞLAR, QUTQAŞEN rayonunda
19 kənd, QUŞ ÇU - Daşkəsən və Şamaxı kəndinin adı, XUŞUD-XURŞUD SALYAN
rayonunda kənd adı.** Və nəhayət!

**XAVİLA-KAVALA, QABALA, QƏBƏLƏ - tarixi on min illəri adlayan,
20 tarixçiləri,alimləri,min-min illərdi heyrətdə qoyan qədim AZƏRBAYCAN şəhəri,
QAFQAZ ALBANİYASININ PAYTAXTI!**

**XAVİLA-KABALA-QƏBƏLƏ, NUHun nəticəsi, HAMIN nəvəsi, QUŞun oğludur.** Bir qədər bu tarixi - dini şəxsiyyətlər haqqında ətraflı mülahizə yürüdək.

Bu sahədə əlimizdə yeganə məlumat ala biləcəyimiz mənbə dini kitab sayılan TÖVRATdır. Musaya mənsub olan (Allah tərəfindən nazil olan) bu kitaba müraciət etməklə, **bu kitabın Azərbaycanın coğrafi ərazisinə aid olduğunu, bu etimolo ji - dini - nəhayət tarixi faktların məhz Azərbaycan tarixi ilə üzvi surətdə yaxınlığını, bilavasitə**
21 **bağlılığını, və nahayət bu Xalqın-Azerilərin-Odərlərin itirilmiş tarixi olmasını mötəbər mənbələrə əsaslanaraq sübuta yetirməliyik!**

Coğrafi ad hər şeydən qabaq, ünvan deməkdir. Nəzər yetirək, TÖVRATda bu hadisələr, coğrafi ünvanlar - adlar hara ünvanlanıb?! Kimlər və nələr haqqında təfsirlənir.

"TÖVRAT" yazır: "Allah fani torpaqdan insan yaratdı. Şərqdə EDEMDƏ bir bağ əkdi ki, həmən bağa - cənnətə baxmaq üçün insanı orda yerləşdirdi" (6).

Bu bağdan böyük bir çay keçir ki, o dörd çaya ayrılır. Onlarda biri FİSON adlanır, o XAVALA torpağından axırdı. Bu torpaq ən yaxşı əyarı olan qızılla, neft və mineralla, əqiq daşı ilə zəngin idi (7).

İkinci çayın adı QİXON adlanır. Bu KUŞ ölkəsini yuyub keçir. Üçüncü çay XİDDEKELdi, ASSURİYANIN önündən axıb keçir. Dördüncü çay isə EVFRATdır (8).

Bu sahədə "TÖVRAT"ın tədqiqatçı alimləri nə kimi elmi-etimoloji mülahizələr söyləyir: "FİSON EDEMin dörd əsas çaylarından biridir. FİSON böyük əksəriyyətlə demək olar ki, Hindistanın böyük çaylarından birinə Qanq çayına uyğun etmək olar. Törəsalnaməçi onun qızıl ölkəsi Xaviladan axıb keçməsini söyləyir. Ona görəndə tam, qəti təyin etmək mümkün deyil. Sual açıq qalır (9).

FİSON qızıl ölkəsi XAVİLAdan axıb keçir. Maraq burasındadır ki, bu müəmmalarla dolu olan XAVİLANIN coğrafi ünvanı haradır?! Yuxarıda XAVİLANI KUŞun oğlu, HAMIN nəvəsi, NUH peyğəmbərin nəticəsi olduğunu təyin etdik (10).

**Təəssüflər olsun ki, əksər alimlər, A.BAKIXANOV (11), M.KALANKATUKLI (12), A.S.SUMBATZADƏ (13), F.MƏMMƏDOVA (14) və başqa digər tədqiqtçılar maraqlıdır,**
22 **hansı mənbələrə əsaslanaraq, əgər əsl mənbə, özəl-əzəl TÖRAT TÖRƏDƏN - YARADAN - VARLIQ, BİL-BİL-BİBLİYA (Bunu Bil) olduğu halda** NUHun əfsanəsinin baş verdiyi ərazini Azərbaycan deyil, hardasa uzaqlarda olması qənaətinə gəlmiş. NUH
23 tərəfindən buralara, şimala, **MİDİYADAN QADİRONA (15) qədər olan ərazidə YAFƏSİN soyunun məskunlaşdığına istinad edirlər. Bu əlbəttə belə deyil.** Buna bir qədər irəlidə
24 aydınlıq gətirəcəyik. Yafəsin yox, **HAMIN soyundan olan KUŞ oğlu XAVİLAnın adının**
25 **daşıyan,** yazılı mənbələrdə (16) **Qəbələyə-Qabala Kabala. XABALA adlandırılan XAVİLAnın coğrafi ünvanı AZƏRBAYCAN olduğunu TƏKİD etməliyik!**

TÖVRAT tədqiqatçıları bu barədə belə qənaətə gəlirlər. "XAVİLA ölkədir. Göstərildiyi kimi, biz hesab edirik ki, FİSON çayı qızıl və qaş-daşlarla dolu olan ölkədən - XAVİLADAN axıb keçir. Bu ölkənin ünvanı, yerləşdiyi coğrafi ünvan haqqında indinin özünə kimi qənaətbəxşedici fikir söyləyib, müsbət rəyə gəlinməyib. Bəzilərinin fikrinə görə Qara dənizin şimalında yerləşmək KOLİXAdır. Bəzilərinin fikrincə FİSON çayı KÜR çayı ilə eyniləşdirilir! Əksər alimlər çoxu, belə nəticəyə gəlir ki, XAVİLA Qafqaz sıra dağlarının cənubunda yerləşib" (17).

Zənnimcə bu ölkənin, XAVİLAnın, KABALAnın - QƏBƏLƏNİN harada yerləşməsinin izah və təhlilinə artıq ehtiyac yoxdur. **Coğrafi ərazi, ünvan TAM aydınlığı ilə əks olunur.**
26 **Qafqaz dağ silsiləsinin cənubunda, Kür çayının axıb keçdiyi ölkə, AZƏRBAYCANDIR!!!**

**Burada biz eyni zamanda KÜR çayının yeni bir adının tədqiq etmiş olduq,**
27 **FİSON! Axıb keçdiyi ölkə isə XAVALA-KABALA-QƏBƏLƏdir.** Müasir ərazinin,
28 xarabalığı QUTQAŞEN rayonunu Çuxur Qəbələ kəndi ərazisində yerləşir. **KUT və QUŞ adlarının komponentidir QUTQAŞEN sözünün mənası.** Yuxarıda qeyd etdik ki **, KUT Hamın üçüncü oğlunun adı, QAŞ sözü isə, QUŞ adının transkripsiyaya uğramış,**
29 **HAMIN birinci oğlu, XUŞun adı ilə eyniləşir ki, Azərbaycan ərazisinin əksər regionlarında toponomik ad kimi, format kimi, daha doğrusu, arxik format kimi**
30

**yaşamaqdadır.** Salyan ərazisində **XUŞUD, XURŞUD-XUŞ ODAsı yaddaşlarda kənd-**
**oda adı kimi hələ də öz adını mühafizə edib saxlamaqdadı!**

İkinci **çayın adı QİXON adlanır. O, bütün KUŞ ölkəsini yuyub keçir (1 8). Bu çay**
**haqqında bir neçə mülahizələr mövcuddur. Bunlardan biri ARAZ çayının olması**
31 **ehtimalıdır. Bu indiki, Xəzər dənizinə axan ARAZ çayıdır. QİXON sürətli, şiddətli,**
**dəliqanlı, qızğın, iti və gur deməkdir ki, bu da ARAZ çayına xarakterik və uyğundur**
**(19).**

Bu çayın QİXON adlanmasının səbəbi və çayın məhz ARAZ çayı olması ehtimalı bizə
belə bir qənaətə gəlməyə imkan yaradır. **QİXON antik müəlliflərin XƏZƏR dənizinə**
**verdiləri adlardan birinə GÜRGAN və ya QİRKAN adına münasib saymaq daha**
32 **düzgün olardı.** Çox yəqin ki, **sonralar KÜR çay adını bu addan mənimsəmiş,**
**qoynunda yaşayan ən ulu tayfalardan birinin başçısının, "...dünya hökmdarı şah**
33 **BAHARATA ilə başlanan KURU sülaləsinə mənsub..." (20) KÜR XANın adından ilişgəl**
**olduğuna isbat versək səhv etmiş olmarıq!**

Burada, çayların axıb keçdiyi cənnət bağının, EDEM ölkəsinin olduğu ərazi və bu adın
etimologiyası daha maraqlıdır. **EDEM sözünün məna açımını ODEM-ODAM sözü**
34 **mənasında törəmə, yaranma olduğuna şübhə ola bilməz. ODA-OD ÖLKƏM anlayışı**
35 **verir.** OD şəxs anlaması, insan adıdır. **OD ölkəm, odlar ölkəsi, odlar diyarımız OD ƏR**
**BAĞımız OD ƏRLƏRİN BAĞIDIR. Həmən cənnətdir, ODAMdır, EDEMdir! (21).**

**Xalqımın mifik təfəkkürü bu suala belə caab verir: "Deyirlər Qonaqkənd**
**atəşgahının keşiyini çəkməyi OD baba hər axşam bir qıza tapşırardı... Hər ilin OD**
**çərşənbəsində Qonaqkənd atəşgahına gələnlər sübh tezdən onları atəşgahın**
36 **başında görürlər (22). OD başlanğıcdır ADƏM - ADAM, OD BABAM, OD ADAMdı**
**cənnətdə məskunlaşan ilk insan!** ADAMIN tale yolundan, EDƏM adlanan OD ölkəmin
37 acınacaqlı talyini danışan belə bir tarixi salnamə, hər halda əfsanə ola bilməz, **zəngin bir**
**zəka xəzinəsi bəs necə olub ki, FƏLƏSTİNDƏ, Yerusalim, YER - SU - ALIMda peyda**
**oldu?!** Bu suala tam aydınlıq gətirmək üçün dünyanın Bibliya tədqiqatçılarının bu sahədə
apardıqları tədqiqat işləri üzərində müfəssəl dayanmalıyıq. Bu araşdırmalardan biri, daha
müfəssəli sayılan, tədqiqatlar siyahısında layiqli yerlərdən birini tutan Z.KOSİDOVSKANIN
1968-ci ildə MOSKVADA çapdan çıxmış "BİBLİYA hekayələri" kitabıdır.

Z.Kosidovski əldə olan son arxeoloji tapıntı və tədqiqatlara əsaslanaraq belə bir
nəticəyə gəlir ki, miladdan əvvəlki ulu çağlarda şimaldan Mesopotamiyaya soxulan qeyri
semit qəbilələri semit qəbilələrini cənubi və cənubi-qərb istiqamətində sıxışdırırlar. Bu
növbəti miqrasiya zamanı **Araimlər - ƏR HAMilər, HAM ƏRləri (NUH peyğəmbərin oğlu**
38 **HAMın tayfası)** SİRİYANI, MOAVİTlər, AMMONİTlər və EDOMİTlər ODƏM ərləri qərbi və
cənubi XANAANda məskunlaşmışdır (23).

Burada belə bir tarixi gediş, miqrasiya və əks miqrasiya modeli ilə, İran körfəzindən
əvvəlcə şimal istiqamətinə və sonra isə naməlum qeyri-smit tayfaları tərəfindən cənuba,
Mesopatamiyadan habelə qovularaq cənubi -qərbə doğru miqrasiya modeli ilə qarşılaşırıq.
Bir qədər sonra isə bura AVRAAMİDİlərin, İBRAHİM - tayfasının gəlişi müşahidə olunur.
İbrahim tayfasının dədə-baba, EL-OBA torpağını tərk etməsinin səbəbi isə dini konfliktdən,
yeni dini ritualdan irəli gəlmiş olduğu qeyd olunur (24).

**Yeni məskunlaşdıqları ərazilərə EL-OBA xatiratını yaşadan EL-OBEYİD şəhər**
**adlarını, yaşayış məskənlərini qurub-yaradıb (25), buraları habelə tərk edərək**
**MİSİRƏ köç edən EDEM-ODAM ƏRLƏRİ NİL boyunca yeni EL-OBA yurdlarını EL-**
39 **OBEYD adı ilə quraraq (2 6), NİL vadisi boyunca böyük bir mədəniyyətin əsasını**
**qoyub (27), özlərinin tarixi KUŞ dövlətinin əsasısın qoyurlar (28).**

Ümumdünya tarixinin şərhçiləri **MESOPOTAMİYADA ən ilkin yaşayış**
40 **məskənlərindən sayılan EL-OBEYD şəhərinin əsasının ŞUMER mədəniyyəti çox-çox**
**öncə qoyulduğunu təsdiqləyirlər (29).**

41 Ərəb səyyahlarının **NİL vadisində KÜR gölünün olması faktına** sonralar nə əsasa şübhəilə yanaşılıb məlum deyil. Əgər bu hidronimin adı ərəb səyyahları tərəfindən xatırlanıb bəs sonra hansı adla əvəz edilib? Əgər edilibsə səbəb nə imiş? Bir də ərəb səyyahlarına ad seçməkdə öz məmləkətlərində admı qəhət imiş ki, həmən "üçüncü gölü GÜR adlandırsınlar?! Əlbəttə, əgər həqiqət deyilsə, təəssüf ki, yalan da deyil!!! (30).

Bu ərazidə də **KÜR adının xatırlanması "ikinci miqrasiyasının" bu əraziyə gəlib çıxdığı bizə əsas verir.** Çünki, **yuxarıda adını "BHAQAVAD-QİTA" - BAHAR ABAD QİTƏsi əsərində xatırlanan Bahar ata adı ilə başlanan KÜRÜ sülaləsinin adının Yerin planetin çox əksər ərazilərində xatırlanması KÜR-ARAZ ovalığından "ikinci**
42 **miqrasiyaya" məruz qalan ulu əcdadın faciəli tarixinə biganə qalmağa bizim sadəcə olaraq mənəvi haqqımız çatmır.** Azərbaycan alimi K.Əliyev dünyanın əksər alimlərini, Strabonu, Pilini, Pulutarxı, Appianı, Dion Kassini və başqalarını misal gətirərək belə
43 qənaətə gəlmiş ki, "... **qədim dövrlərdən bəri bu çayın adı KÜRün sahillərində məskən salmış ALBAN tayfalarının şivələrinin birindən götürülmüşdür" (31).**

K.K.Boxov Afrikanın **Sudan əyalətinin etnik xalqlarının adını çəkərkən EL-OBEYD**
44 **əhalisinin əsasını NUBİLƏR, AZANDLAR, LOTUKLAR və başqaları təşkil etdiyini qeyd etməsi "xüsusi" maraq doğurmaya bilməz (32).**

**Yeri gəlmişkən dilimizin AZƏRİ və SUDAN dilinin bir neçə paralellərinə nəzər edək.**

| | |
|---|---|
| **AFRİKA** | **AZƏRBAYCAN** |
| **SUDAN əyaləti** | **KÜR-ARAZ mədəniyyəti** |
| **SEDD -prepyatstviem** | **SƏDD - maneə (33)** |
| **AKSUM - qorod Ptolomeyə görə** | **AĞSU - Azərbaycanda şəhər (34)** |
| 45 **TİS-ISAT-dım bez oqnya** | **TÜSSÜ - od, odun yanma (35) əlaməti** |
| **XUKUMDAR-pravitel** | **HÖKMDAR-hökm verən (36)** |
| **ŞİİLLUK-neposluşnıy** | **ŞULUĞ-nadinç (37)** |

və bu kimi onlarla misal gətirmək olar. Doğrusu burada dahabaşqa bir maraqlı fakt var. K-X
46 Boxov **XARTUM - (XORTUM, Azərbaycan dilində olduğu kimi,** FİL xortumu) əyalətinin, SUDAN ölkəsinin (SUDAN - dilimizdəki GÜL dan, ÇAY dan kimi) milli tərkibini
47 sadalayarkən **"MƏQRİB əhalisinin və ARNAUTOVLARIN"** adını xatırlayır ki, bu adın həmən əsərdə səhifə 230-da izahı belə şərh edilir (38).

**ARNAUT - tyurkskoe nazvanie ALBAN ÇEV. Bəli, türk dilində ALBAN**
48 **adlandırılan MƏQRİB əhalisi!!!** Bu çox geniş və ətraflı, eyni zamanda mühüm bir araşdırmanın mövzusudur. Buna biz bir qədər irəli də geniş bəhs, məhz xüsusi bir aydınlıq gətirəcəyik. Fikrimizi AFRİKAYA yönəldən, alimlərin-tədqiqatçılarnı miqrasiyası dalğası adlandırdığı köçüb getmə problemlərinlən ən yaxını olan İBRAHİMİLƏRİN - İBRAHİM peyğəmbərin tayfasının, əsasəndə İSMAİLİN nəslinin miqrasiya dalğası məsələsi idi. Qeyd etdik ki, bu miqrasiyanın dalğası müasir KÜR-ARAZ ovalığından EDEMdən, ODAMDAN - OD ölkəmdən, OD diyarından, ODLAR diyarından BAŞLAYIB, bir neçə istiqamətdə, ŞƏRQ, ŞİMAL, QƏRB və nəhayət CƏNUBA doğru hərəkət edərək **QƏDİM DÜNYANIN**
49 **zəngin bir mədəniyyətini KÜR-ARAZ mədəniyyətini Planetin ən ucqar nöqtələrinə qədər yaymışdır.** TÖVRATDA əbədi ünvanını öz yaddaşında yaşadan xatiratlardan biri də belə təsvir olunur! **"ONİ cili ot XAVİLI do SURA, çto pered EQİPTOM, kak ideş k**
50 **ASSİRİİ" (39). İsmailin nəsli MİSİRDƏN qabaq, ASSİRİYAYA gedən yol üzərində, XAVALI ilə SURA arasındakı ərazidə yaşayıblar.** Yuxarıda XAVALInın - QƏBƏLƏ olduğunu əksər dünya alimlərinin gəldikləri nəticə, bizə **SURA coğrafi-arxik formatın**

51

**SALYAN rayonundakı SURRA adıilə KÜRün XƏZƏRƏ qovuşduğu, özünün dini-mifik yaddaşı ilə, xalın təfəkkür dünyasının daşlaşmış yaddaşını əbədi qoynunda saxlayan SURRA qəsəbəsi - kəndi - odasıdır!** Bu adın, SURA adının Azərbaycan ərazisinin əksər rayonların, o cümlədən, ABŞERONda SURAXANI qəsəbəsi, SABİRABADda SURA kənd adlarına rast gəlinməsinə baxmayaraq, məhz **SALYAN rayonu ərazisində olan SURRA olduğu qənatəinə gəlməyimiz də səbəbsiz deyildir. Məhz SALYANdakı SURRA adının qoşa samitli, iki RR olması faktıdır.** TÖVRATA görə sözlərdəki iki qoşa samitin, bəzi vaxtlarda saitin mənası müqəddəslik bildirir. İbrahim peyğəmbərə müqəddəsliyin və böyük bir xalqın atası adlandırılması bu kimi təsvir olunur. "Sən, İBRAHİM, bir daha İBRAHİM yox, İbraaim - Avraam - deyə çağırılacaqsan" ( 40). Eyni ilə, ALLAH İbrahimə, arvadını SARA deyil,bundan belə SARRA deyə çağırmalısan deyir ( 41). **FARRA, ARRAN, İSAAK və SURRA adındakı qoşa hərflərin yaranması və adlarda, sözlərdə müşahidə olunması, məhz TÖVRAT dövrünün məhsulu olduğunu şübhə yoxdur! Elə bu baxımdan "ot XAVALI do SURA" QƏBƏLƏDƏN SURAYA qədər olan Salyanın SURRA adlı, KÜRün XƏZƏRƏ qovuşduğu ərazi nəzərdə tutulmalıdır.** Bir də **SURA kimdir, tarixin hansı zamanından ilişgəldir ?** Bu suala aydınlıq gətirməzdən qabaq, nəzər yetirək, görək bu cənnət adlanan məkanda, cənnət ölkədə ODLAR diyarı ODAMDA - EDƏMDƏ İBRAHİM peyğəmbərə qədərki hadisələrin şərhi və tayfa-qəbilə münasibətlərinin təhlili nə deyir?

ADAM

ADƏM - OD baba

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. A.Bakıxanov. Gülüstani irəm. Bakı, 1951, səh.38.
2. L.Mişterhazi. Promitey müəmması, Bakı, 1984, səh.33.
3. История Европы. Т.1., М., 1988, стр.49-51.
4. F.Engels. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi, Bakı, 1971, səh.25.
5. İ.Əliyev. EA-nın xüsusi büllleteni. Bakı, 1959, səh.40.
6. БИБЛИЯ. Бытие 2. 7-8 Российское Библейское общество. М., 1995.
7. Yenə orada, 2.11-12-13.
8. Yenə orada, 2.13-14.
9. Bibliya ensiklopediyası. T.2, M., 1891, səh. 241.
10. Bıtie 10, 1-6-7.
11. A.Bakıxanov. Gülüstani-irəm. səh.30-31.
12. M.Кalankatuklı. Alban tarixi. Bakı, 1993, səh.14-15.
13. A.S.Sumbatzade "Azerbaydcanüı-gtnoqenez, informirovanie naroda", Baku, "Glm", 1990, str.20-25.
14. F.Məmmədova "Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993, səh.13.
15. M.Кalankatuklı "Alban tarixi", Bakı, 1993, səh.15
16. R.Göyüşov "Azərbaycan arxeologiyası", Bakı, 1986, səh.125.
17. Bibliya ensiklopediyası, t.2, səh.243.
18. БИБЛИЙА. Бытие 2.13
19. Библейская энциклопедия, Москва, 1991, т.1, стр.163.
20. BXAQAVAD-QİTA, olduğu kimi,Bakı, 1991, səh.13.
21. BİBLİƏ. Bıtie 2.8.
22. A.Nəbiyev "İlaxır çərşənbələr", Azərnəşr, 1992, səh.26.
23. З.Косидовский "Библейские сказания", М., 1961, стр.78.
24. Yenə orada, səh.79.
25. Ə.Əlibəyzadə "Qədim dünyanın ulu kitabı", Bakı, 1996, səh.25.
26. К.Х. Боков "По истокам Нила", стр.49,62,82.
27. Всемирная История, т.1, М., 1955, стр.199.
28. Всемирная История, т.1, М., 1955, стр.573.
29. Yenə orada, səh.194.
30. К.Х. Боков "К истокам Нила", М., 1987, стр.11.
31. К.Əliyev "KÜR çayı adı haqqında", Dokladı AN, t.15, səh.364.
32. К-X Boxov "К istokam Nila", str.82.
33. Yenə orada, səh.18.
34. Yenə orada, səh.63.
35. Yenə orada, səh.72.
36. Yenə orada, səh.92.
37. Yenə orada, səh.95.
38. Yenə orada, səh.94.
39. Bibliə Bitie 25.18
40. Yenə orada, 17.5 səh.40
41. Yenə orada, 17.15, səh.25

# Afət Meylud-Oyli
## FİLOSOF

**Afət Malik oğlu Əmirəliyev** - 1954-cü ildə Azərbaycan SSR Salyan rayonunda fəhlə ailəsində anadan olmuşdur. Azərbaycan xalqının fəlsəfi təfəkkürünün tarixi ənənələrini- Ümümdünya materialist fəlsəfəsini davam etdirən, cəmiyyətin inkişaf qanunlarının Kommunizim-sosial ədalət, ictimai bərabərlik əsasında dövlət quruculuğunun mümkünlük nəzərriyyəsinin müəllifi.

A.Nobelin vəsiyyətinin, beşinci hissənin, qulçuluq münasibətlərinin ləğvinə, gərəksiz güc nazirliklərinin, o cümlədən hərbinin ixtisarlaşdırılması və tədricən ləğvini, xalqlar arasında sülhün və yaxınlığın tə’min olunmasının mümkünlüyünü sübuta yetirmişdir.

Bu mümkünlüyü yalnız Dövlət atributlarından biri- pulun ləğv olunması ilə əsaslandırmışdır.

Ədalətsizlik və hüquqsuzluğun, cinayət hallarının bütün - əksər mövcud forma və əlamətlərinin bəzisini tə’yin edən pulun ləğvinin 1985-ci ildə elmi əsasını vermişdir. Bu elmi nəzəriyyəyə görə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi tərəfindən Dövlət işlərinə də’vət almışdır.

Hal-hazırda, könüllü olaraq, fəhlə işləyir.

Təhsili:

1972-ci ildə Azərbaycan SSR Salyan şəhərində orta məktəbi bitirib.

1986-cı ildə Kalininqrad şəhərində hərbi-texniki məktəbi ə’la qiymətlərlə bitirmiş,

Moskva, M.V.Lomonosov adına Dövlət Universitetinin fəlsəfə,

Kazan, V.İ. Lenin adına Dövlət Universitetinin hüquq,

Bakı, S.M. Kirov adına Dövlət Universitetinin tarix və hüquq fakültələrində hazırlıq kursları keçmişdir.